# Kövrək ürəkli nəhəng insan

## O, rəssam təfəkkürü, şair zərifliyi ilə nəsrimizə kolorit gətirib

**Onu 60-70-ci illər nəsrinin nümayəndəsi nəinki tanıyır, əsərlərini sevirlər. Fərman Kərimzadə hekayələri, povestləri, nəhayət romanları ilə Azərbaycan ədəbiyyatında özünəməxsus imza sahibidir. F.Kərimzadə həmçinin rəssam kimi də tanınıb. Şair Musa Yaqubun dediyi kimi: "Fərman rəssam təfəkkürü, şair zərifliyi ilə nəsrimizə kolorit gətirdi".**

**Martın 3-də 80 yaşı tamam olan Fərman Kərimzadə həyatda olmasa da, adı həmişə məhəbbətlə xatırlanır.**

### "41 NÖMRƏLİ AYAQQABI" İLƏ BAŞLAYAN YARADICILIQ

Fərman Kərimzadənin uşaqlıq illərinə müharibənin, gənclik illərinə Ermənistandan köçkünlüyün ağrıacısı yazılıb. Tanınmış yazıçı Ermənistanın Vedi rayonunun Böyük Vedi kəndində anadan olub. İbtidai təhsilini orada alıb, orta məktəbi isə Beyləqan rayonunun Şahsevən kəndində bitirib. Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil alıb. 3 il İsmayıllı və Beyləqan rayonlarında orta məktəb müəllimi kimi çalışan F.Kərimzadə "Yüksəliş" rayon qəzeti redaksiyasında ədəbi işçi, şöbə müdiri, məsul katib işləyib. Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunun ssenari fakültəsinin ikinci kursunu bitirdikdən sonra əmək fəaliyyəti şaxələnib. Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində tərcüməçi, böyük redaktor, "Abşeron", "Ədəbiyyat və incəsənət" qəzetlərinin redaksiyasında şöbə müdiri, ədəbi işçi, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında kollegiya üzvü, "Ədəbiyyat və incəsənət" qəzetinin xüsusi müxbiri kimi fəaliyyət göstərib, Şüvəlan yaradıcılıq evinin direktoru işləyib.

"41 nömrəli ayaqqabı" hekayəsi F.Kərimzadənin ilk qələm təcrübəsi olsa da, müharibənin fəlakət dolu nəticələrini təsirli bir dillə oxucuya çatdırır. Yazıçının uşaqlıq illəri müharibə dövrünə təsadüf etdiyindən sonradan da bu mövzuda əsərlər yazır. "Son eksponat", "Toy toğlusu" hekayələrini də müharibəyə həsr edir. Yazıçı povestlərində işıqlı ideallar təbliğ edir, xalq malını dağıdanları, israfçıları, əliəyriləri, tüfeyli və kübar yaşayış tərzini ifşa edir. Fərman Kərimzadəni ədəbi aləmdə daha çox məşhurlaşdıran onun romanlarıdır. Onun 1967-ci ildə çap olunmuş "Qarlı aşırım" əsəri yazıçının istedadını üzə çıxarır. F.Kərimzadə "Qarlı aşırım"da 30-cu illərin ziddiyyətlərini, kollektivləşmə dövrünün çətinliklərini, özündən əvvəlki nəsr ustalarını təkrar etmədən tamamilə yeni ruhda əks etdirir.

Ədəbi tənqidçilər F.Kərimzadənin uzun tədqiq və araşdırmalardan sonra qələmə aldığı "Xudafərin körpüsü" dilogiyasını xalqımızın tarixinə məhəbbət və hörmətin ifadəsi kimi dəyərləndirir, Azərbaycan torpaqlarının birlik və mədəniyyətinin yüksəliş dövrünün bədii salnaməsi adlandırırlar. F.Kərimzadənin əsərləri kino sənəti üçün zəngin material kimi rejissorların diqqətini çəkib. "Qarlı aşırım" romanı əsasında çəkilən "Axırıncı aşırım" filmi milli kinematoqrafiyamızın uğurlarından sayılır. Yazıçının "Toy toğlusu" hekayəsi əsasında qısametrajlı "Zınqırov", bir novellası əsasında "Mənim arvadım, mənim uşaqlarım" filmi çəkilib. Yazıçı təsvir etdiyi hadisələrin baş verdiyi əraziləri qarış-qarış gəzib, qəhrəmanlarının yeri-yurdu ilə maraqlanıb. Abbasqulu bəy Şadlinskinin ev muzeyinin açılmasında, onunla bağlı sənədlərin toplanmasında yaxından iştirakına görə (Şadlinskinin 100 illiyi günlərində) Naxçıvan MSSR Mədəniyyət Nazirliyinin Fəxri Fərmanı ilə mükafatlandırılıb.

### BÜTÖV İNSAN

Qələm yoldaşları Fərman Kərimzadəni xoş xatirələrlə yada salır, onu sanballı yazıçı, istedadlı rəssam və gözəl insan kimi dəyərləndirirlər. F.Kərimzadə ilə eyni vaxtda ədəbiyyata gəldiyini deyən **Xalq şairi Fikrət Qoca** qələm yoldaşını Azərbaycan torpağının qədrini bilən yazıçı kimi xatırlayır: "Fərman dərin düşüncəli adam idi. Böyük bir həvəslə yaradıcılığa başladı. O, rəssam idi, gözəl əsərlər çəkir, hər şeyə rəssam gözü ilə baxırdı. Ancaq sonradan ədəbiyyata daha çox bağlanıb gözəl əsərlər yazdı. Onun yazdığı romanlar oxucular tərəfindən çox sevilirdi. Romanı əsasında film çəkildi. O, xalq, millət qeyrəti çəkən sənətkar idi. Heyf ki, aramızdan tez getdi. Ancaq onun adı və əsərləri həmişə ədəbiyyat tariximizdə qalır və həmişə yaşayacaq".

**Yazıçı Elçin Hüseynbəyli** Fərman Kərimzadənin özü ilə şəxsi tanışlıqdan əvvəl əsərlərinə bələd olduğunu deyir. Belə ki, öncə yazıçının "Xudafərin körpüsü", "Çaldıran döyüşü" kimi əsərlərini oxuyub. Daha sonra Moskva Dövlət Universitetində oxuduğu illərdə azərbaycanlı tələbələrinin icmasının sədri kimi Azərbaycan nümayəndəliyində görüşüblər: "Fərman Kərimzadə ilə bizi Polad Bülbüloğlu tanış etdi. Mən onun tələbələrlə görüşünü təşkil etdim. Maraqlı görüş keçdi. "Bakıya qayıdandan sonra harada işləmək istəyirsən?" - deyə soruşdu. Mən iş tapmağın çətin olduğunu deyincə "Mənə bir iş tapşırıblar. Gələndən sonra səni işə düzəldərəm" - dedi. Fərman Kərimzadə azərbaycanlıların Ermənistandan qovulması məsələsi ilə bağlı Moskvaya gəlmişdi. Biz də tələbələr adından müraciət hazırlayıb SSRİ Xarici İşlər naziri Andrey Qromıkoya ünvanladıq".



Moskvada olduğu günlərdə birlikdə xeyli vaxt keçirdiklərini deyən E.Hüseynbəyli Fərman Kərimzadəni maraqlı insan kimi xatırlayır: "Moskvanın küçələrini xeyli gəzdik. O, nərd oynamağı sevirdi. Moskvada olanda onunla nərd oynayırdıq. Həm də yeyib-içməyi xoşlayan adam idi". F.Kərimzadə həm də sədaqətli insan olub. Moskvadakı tələbələrin ona isti münasibətini unutmayıb: "Bir gün yay tətilində evdə olarkən "Səni rayonun prokuroru çağırır" dedilər. Ardımca maşın da göndərmişdilər. Gedib Fərman Kərimzadə ilə prokurorun



açıq havada yemək yediklərini gördüm. Sən demə, Fərman Kərimzadə məni axtarıb. Sonra onunla Xudafərin körpüsünə getdik. Rus əsgərləri bizi körpüyə buraxmaq istəmirdilər. "Mən mütləq keçib əllərimi yumalıyam" - deyə Fərman Kərimzadə israr edirdi. Təbii ki, bizi körpüyə yaxın buraxmadılar. Xeyli aralıda durub körpüyə baxdıq. Bir il sonra mən Moskvadan tətilə gələndə əmim Fərman Kərimzadənin rəhmətə getdiyini dedi. Onun ölümü mənə çox təsir etdi".

E.Hüseynbəyli yazıçının "Vedinin yanı dağlar" hekayəsini hələ onun sağlığında "Ulduz" jurnalında oxuyub: "Fərman Kərimzadə həm yazıçı, həm də şəxsiyyət kimi bütöv insan idi".

E.Hüseynbəylinin yaddaşında Fərman Kərimzadə əsl türk kişisi kimi qalıb: "Enlibalaq şalvarda, balaxon köynəkdə olan lopabığ bir adamın iri addımlarla, özünə inamla irəliləməsi gözümün önündədir. Onunla bağlı ürəyimdə yalnız xoş xatirələr qalıb".

E.Hüseynbəyli yazıçının əsərlərinin oxucular tərəfindən böyük maraqla qarşılandığını deyir: "Onun imzası da, əsərləri də çox populyar idi. Tariximizlə bağlı yazdığı əsərlər maraqla qarşılanırdı. Azərbaycan tarixi haqda roman yazmaq çox şərəfli işdir. Çünki həmin əsərlər Azərbaycan ədəbiyyatında daim yaşayacaq. Fərman Kərimzadə də həmin əsərlərin müəllifi kimi ədəbiyyat tariximizdə qalacaq".

### NƏHƏNG İNSANIN KÖVRƏK ÜRƏYİ

Fərman Kərimzadənin əsərləri haqqında bir neçə məqalələr yazan **tənqidçi Vaqif Yusifli** ədəbi nəsil etibarilə Fərman Kərimzadənin 60-cı illərin nəslinə aid olduğunu söyləyir. "Fərman Ermənistandan köçürülənlərdən, deportasiyanın qurbanlarından biridir. Sonra Beyləqanda yaşayıb. Bakıda Rəssamlıq Texnikumunu bitirib. Həmin müddətdə ilk yazılarını da qələmə alıb. Onun gözəl rəsmləri olub".

Yazıçının "Qarlı aşırım" romanına qədər bir neçə povest və hekayələr yazdığını deyən V.Yusifli həmin əsəri Azərbaycan tarixi romanlarının yeni səhifələrindən biri hesab edir. Belə ki, İsmayıl Şıxlının "Dəli Kür", Mirzə İbrahimovun "Pərvanə" romanlarından əvvəl yazılan əsərlərdə hadisələr sinfi-siyasi müstəvidə öz bədii təcəssümünü tapırdısa, bəy, mülkədar, kapitalist obrazları qara boyalarla işlənibsə və əsas mövzu Azərbaycanın sovet hakimiyyəti uğrunda mübarizəsi önə çəkilibsə, Fərman Kərimzadənin romanında təsvir edilən qəhrəmanlar fərqli idi: "Onun müşahidə etdiyi, adamlardan öyrəndiyi hadisələr XX əsr azərbaycanlılarının həyatında böyük rol oynayan bolşeviklər olsa da, əsas qəhrəmanı xalqın qeyrətini çəkən Abbasqulu bəydir. O, əsl azərbaycanlı kişisi obrazı olan Kərbəlayı İsmayıl obrazını yaradıb. Qəmlo da onun təxəyyülüdür. Yəni Qəmlo əslində pis adam olmayıb. Amma romanda tipik obraz kimi verilib".

Tənqidçinin sözlərinə görə, bu tarixi roman Fərman Kərimzadənin sonrakı həyatında mühüm rol oynayıb: "Fərman əsl azərbaycanlı, vətənpərvər idi. O, Şah İsmayıl Xətaini çox sevirdi və onun həyatına aid "Çaldıran döyüşü" və "Xudafərin körpüsü" dilogiyasını yazdı. Bu əsər ənənəvi tarixi roman səpkisində yazılsa da, çox maraqlı və oxunaqlı əsər idi. Ölümünə yaxın yazıçının "Təbriz namusu" romanı çapdan çıxdı. O, tarixi romanın Azərbaycanda yeni səhifələrini açan yazıçı idi".

V.Yusifli yazıçını xeyirxah adam kimi xatırlayır: "Fərman Bakıya köçürülən köçkünlərin şikayətlərini dinləyir, onların hüquqlarını müdafiə etmək üçün Moskvaya belə gedib çıxırdı. Günlərin bir günündə onun ürəyi Beyləqanda qəfildən dayandı. Fərmanla aramızda yaxşı münasibət var idi. O, boy-buxunlu, nəhəng bir insan idi. Ancaq bu nəhəng insanın kövrək ürəyi var idi. Elə ona görə də ürəyinin ağrısı onu bu dünyadan apardı. Özündən sonra maraqlı əsərləri qaldı. Bir də ədəbiyyatımızdan heç zaman pozulmayacaq izi".

**Təranə Məhərrəmova**